# SAMUX: DİNAMİK İNKİŞAF TƏMİN OLUNMUŞDUR

Qabaqcıl aqrar rayonlardan olan Samuxda "2019-cu ilin sosial-iqtisadi inkişafının yekunları və 2020-ci ildə qarşıda duran vəzifələr" barədə geniş hesabat yığıncağı keçirilmiş, nailiyyətlərə nəzər salınmış, görüləcək önəmli məsələlər ətraflı müzakirə edilmiş, konkret qərarlar qəbul olunmuşdur. Samux Rayon İcra Hakimiyyətinin başçısı Alı Qocayev, Azərbaycan Respublikası Prezidenti Administrasiyasının məsul işçisi Orxan Mürsəlov, rayon icra hakimiyyətinin, YAP şəhər təşkilatının nümayəndələri, hüquq-mühafizə orqanlarının, təhsil, səhiyyə, mədəniyyət və xidmət rəhbərləri və ziyalılar ümummilli lider Heydər Əliyevin əzəmətli abidəsi önünə tər qərənfillər qoymaqla, xatirəsini bir dəqiqəlik sükutla yad etdilər. Sonra Heydər Əliyev Mərkəzində davam edən yığıncaqda Samux Rayon İcra Hakimiyyətinin başçısı Alı Qocayev cari ildə görülən işlər barədə ətraflı məlumat verərək, qeyd etdi ki, ümummilli liderimiz Heydər Əliyev tərəfindən müəyyən edilmiş inkişaf strategiyası möhtərəm Prezidentimiz cənab İlham Əliyev tərəfindən yeni dövrün tələblərinə uyğun uğurla davam etdirilir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müdrik rəhbərliyi nəticəsində 2019-cu ildə də ölkəmizin dinamik inkişafı təmin edilmiş, qarşıda duran məsələlər öz həllini tapmış, böyük layihələr icra olunmuşdur. Ölkənin beynəlxalq nüfuzu artmışdır.

Əvvəlki illərdə olduğu kimi, 2019-cu ildə də Samux rayonunda istehsal və xidmət sahələrinin genişləndirilməsi, sosial obyektlərin təmiri-tikintisi, abadlıq-quruculuq işlərinin aparılması istiqamətində həyata keçirilən tədbirlər davam etdirilmiş, iqtisadiyyatın dinamik inkişafı təmin olunmuşdur. Rayon iqtisadiyyatının əsas göstəricilərində bu öz əksini tapmışdır. Hesabat ilində rayon üzrə ümumi məhsul buraxılışının həcmi 159,0 milyon manat təşkil etmişdir. O cümlədən sənaye məsullarının həcmi, 6,0 milyon manat, kənd təsərrüfatı məhsullarının həcmi 89,4 milyon manat olmuşdur.

Hesabat ilində rayonda tikinti-quruculuq və abadlıq işləri daha da sürətləndirilmişdir. Belə ki, "Azərbaycan Respublikasının şəhər və rayonlarında çoxmənzilli binaların dam örtüklərinin təmiri ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamına müvafiq Samux şəhərində Qarabağ müharibəsi əlilləri və şəhid ailələri üçün inşa edilmiş 36 mənzilli binanın dam örtüyünün dəyişdirilməsi, eyni zamanda təmirə ehtiyacı olan 4 çoxmənzilli yaşayış binasında təmir-bərpa işləri başa çatdırılmışdır. 2019-cu il ərzində növbəlilik əsasında 2 şəhid ailəsinə və 7 Qarabağ müharibəsi əlilinə fərdi yaşayış evinin tikintisinə başlanılmış və işlər tamamlanmışdır.



İlin əvvəlində Yenikənd-Köbər-Qaraağaclı yolu üzərində biraşırımlı körpünün tikintisinə başlanmış və ümumi uzunluğu 24 metr, eni 8,4 metr olan körpünün tikintisi qısa müddət ərzində başa çatdırılaraq istifadəyə verilmişdir. Alabaşlı qəsəbə 2 saylı uşaq bağçasının qəza vəziyyətində olan binasında əsaslı təmir və bərpa işlərinə başlanmış və qısa müddət ərzində işlər başa çatdırılaraq körpələrin istifadəsinə verilmişdir. Bağçanın istilik sistemi qurulmuşdur.

Samux şəhər 2 saylı uşaq bağçası üçün ayrılmış yeni binada yenidənqurma və bərpa işlərinə başlanmış, hazırda işlər başa çatmaq üzrədir. 2019-cu ilin sonunda Heydər Əliyev Fondu tərəfindən Sərkar kənd tam orta məktəbi üçün 800 şagird yerlik, Sərkar kənd körpələr evi-uşaq bağçası üçün 100 yerlik, Ziyadlı kənd uşaq bağçası üçün 80 yerlik binaların tikintisinə, Ziyadlı kənd tam orta məktəbinin binasının əsaslı təmirinə və rayon mərkəzi xəstəxanası üçün müasir tələblərə cavab verən yeni xəstəxana binasının inşasına başlanılmışdır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ölkədə kənd təsərrüfatının inkişaf etdirilməsi, ərzaq təhlükəsizliyinin təmin edilməsi məqsədilə verdiyi müvafiq tapşırığa əsasən rayon ərazisində iri təsərrüfatların yaradılması istiqamətində işlər davam etdirilmişdir. Hazırda rayonda "AQRO DAİRY" Məhdud Məsuliyyətli Cəmiyyət, "Boz dağ" heyvandarlıq kompleksi, "Ulduz 2011" MMC, "Qarabağ Region MKT" MMC, "Vest Milk" MMC, Murovdağ Kəndli fermer təsərrüfatı, Heyvandarlıq və Yemçilik müəssisəsi, "Region Aqro" MMC kimi iri sahibkar təsərrüfatları fəaliyyət göstərir.

5 min ha ərazidə yaradılmış "AQRO DAİRY" Məhdud Məsuliyyətli Cəmiyyət 2019-cu ilin məhsulu üçün müəssisə tərəfindən 3306 ha sahədə əkilmiş taxıl sahəsindən 7333 ton məhsul əldə olunmuşdur. Təkrar əkinlə 2720 payızlıq qarğıdalı əkilərək 7826 ton məhsul əldə edilmişdir.

"Region Agro" MMC tərəfindən 2019-cu ilin məhsulu üçün 562 ha buğda sahəsindən 1602 ton məhsul yığılmışdır. 493 ha təkrar əkin aparılmışdır ki, buradan 4214 ton payızlıq qarğıdalı və 3669 ton silos üçün istehsal olunmuşdur.

2019-cu il ərzində 370 ədəd nasos, 36 ədəd elektrik avadanlığı təmir edilmişdir. Torpaqların suvarılması üçün kanallarda 769 min kubmetr lildəntəmizləmə, 205 min kubmetr sahilbərkitmə işləri görülmüşdür. Kanallarda 26 ədəd hidrotexniki qurğu, 20 ədəd hidropost təmir edilmiş, 30 min kvadratmetr kol-koslardan təmizləmə işləri aparılmışdır.

İlin əvvəlində respublikamızın hər yerində olduğu kimi, rayonumuzda da əhalinin məşğulluğu sahəsində yaranmış problemin aradan qaldırılması məqsədi ilə ölkə başçısının tapşırığı əsasında yeni iş yerlərinin yaradılması və ictimai işlərin təşkili istiqamətində tədbirlər həyata keçirilmişdir. Belə ki, 2019-cu il ərzində 592-si daimi olmaqla 1000 yeni iş yeri yaradılmışdır.

Bununla bərabər, il ərzində əsas tədbirlərdən biri də Azərbaycan Respublikası Prezidentinin "Əhalinin özünüməşğulluğunun təmin olunması sahəsində əlavə tədbirlər haqqında" 07 aprel 2016-cı il tarixli Sərəncamının icrası ilə əlaqədar, özünüməşğulluğun təmin edilməsi Proqramına Mərkəzdə qeydiyyatda olan işaxtaran vətəndaşlardan 122 nəfər aztəminatlı ailələrdən biznes ideyası, bacarığı olan seçilib təlimə cəlb edilmişdir.

Rayonun təhsil, səhiyyə və mədəniyyət sahələrinin inkişafı da daim diqqətdə saxlanılmışdır. Son illərdə rayonda inşa edilən məktəblər, onların maddi-texniki bazasının yaxşılaşdırılması və informasiya-kommunikasiya texnologiyaları ilə təmin olunması rayonun təhsil sisteminə müsbət təsir göstərmişdir. Son 16 ildə rayonda 18 yeni məktəb binası inşa edilmiş, 17 məktəbdə əsaslı təmir işləri aparılmışdır.

2018-2019-cu tədris ilində 11-ci sinfi bitirmiş 434 məzundan 309 nəfəri və ya 71,2 faizi ali məktəblərə sənəd vermiş, onlardan 171 nəfəri və ya 55,3 faizi müvafiq ali məktəblərə qəbul olunmuşdur. Qəbul olunanlardan 23 nəfəri 500 baldan yuxarı nəticə göstərmişdir ki, onlardan da 2 nəfəri 600 baldan yuxarıdır.

2019-cu ildə Samux Rayon İcra Hakimiyyəti başçısı aparatına ümumilikdə 576 (528) ərizə, təklif və şikayət daxil olmuşdur ki, bu da 2018-ci ildəkindən 48 müraciət və ya 9,1 faiz çoxdur. Daxil olmuş müraciətlərdən 246-sı (215) yerli sakinlərdən, 330-u (313) isə respublikanın yuxarı təşkilatlarından daxil olmuşdur.

2019-cu ildə rayon İcra Hakimiyyəti başçısı tərəfindən rayonun hüquq-mühafizə orqanları və xidmət təşkilatlarının rəhbərləri ilə birgə həftədə bir dəfə olmaqla bütün yaşayış məntəqələrində səyyar qəbul-görüşlər keçirilmişdir.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının məsul işçisi Orxan Mürsəlov Azərbaycanda davamlı inkişafdan, aparılan uğurlu islahatlardan əhatəli danışaraq, respublikasının Prezidenti cənab İlham Əliyevin səyi nəticəsində respublikanın sosial-iqtisadi inkişafı sahəsində əldə olunmuş nailiyyətlərdən ətraflı söhbət açdı.

Samux Rayon Təhsil Şöbəsinin müdiri Gülağa Hüseynov, Suvarma Sistemləri idarəsinin rəisi Gülağa Bağırov və başqaları Azərbaycanda bütün sahələrdə aparılan uğurlu islahatlardan, davamlı inkişafdan, görülən yüksək templi abadlıq-quruculuq işlərindən danışaraq, rayona göstərilən sonsuz diqqət və qayğıya görə rayon sakinləri və kollektivləri adından dövlət başçısı cənab İlham Əliyevə dərin minnətdarlıqlarını ifadə etdilər.

Sonda Azərbaycan Respublikası Prezidentinə müraciət qəbul olundu.

**Zabit XƏLİLOV,**
**"Respublika".**